# 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNMUŞDUR

## Lənkəran

Milli Qurtuluş Günü respublikamızın hər yerində olduğu kimi Lənkəranda da böyük təntənə və coşqu ilə qeyd edildi.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, ictimaiyyətin və əmək kollektivlərinin nümayəndələri Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi Heydər Əliyevin adını daşıyan xatirə parkına gələrək ulu öndərin abidəsi önünə gül dəstələri düzdülər, dahi rəhbərin əziz xatirəsinə dərin ehtiramlarını ifadə etdilər. Mərasimdə ümummilli liderə həsr olunmuş şeirlər, mahnılar səsləndi.

Lənkəran Şəhər İcra Hakimiyyətinin iclas zalında "Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarıdır" mövzusunda elmi-praktik konfrans keçirildi.

Tədbiri icra başçısı Taleh Qaraşov açaraq iştirakçıları əvvəl I Avropa Oyunlarının başlanması münasibətilə təbrik etdi. Bu oyunların tarixdə ilk dəfə keçirildiyini, müstəqil Azərbaycana böyük etimad göstərildiyini, qazanılan nailiyyətlərin arxasında Heydər Əliyev siyasətinin durduğunu diqqətə çatdırdı.

İcra başçısı məruzə edərək 1990-cı illərin əvvəllərində xalqımızın başına gətirilən faciələrdən, ölkədə hökm sürən xaos, anarxiya və özbaşınalıqlardan danışdı. Məhz belə bir ağır, taleyüklü məqamda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə gələrək millətə yeni nəfəs, yeni həyat gətirdiyini bildirdi.

İcra başçısı qeyd etdi ki, 15 iyun hər bir Azərbaycan vətəndaşının taleyinə yaddaşına əbədi yazılan tarixdir. Bu tarix müstəqilliyimizin və dövlətçiliyimizin qurtuluşu günüdür.

İcra başçısı bildirdi ki, ulu öndərin rəhbərliyilə ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, qısa vaxtda siyasi sabitlik bərqərar olundu. Aparılan iqtisadi, siyasi islahatlar nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu. Xalqın həyat səviyyəsi yüksəldi. Ölkəmiz dünya birliyində layiqli yer tutdu, beynəlxalq aləmdə nüfuzu artdı. Müstəqilliyimiz əbədi və dönməz oldu.

İcra başçısı Taleh Qaraşov ulu öndərin siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin titanik fəaliyyətindən, müstəqilliyimizin qorunub möhkəmləndirilməsində misilsiz xidmətlərindən danışdı. Lənkəranın həmişə dövlət qayğısı ilə əhatə olunduğunu, rayonda genişmiqyaslı tikinti-quruculuq, abadlıq işlərinin aparıldığını bildirdi. İcra başçısı lənkəranlıların bundan sonra da Prezident İlham Əliyevin ətrafında sıx birləşəcəyini və müstəqil Azərbaycanın sürətli inkişafına layiqli töhfələr verəcəklərini qeyd etdi.

Konfransda çıxış edən natiqlər Milli Qurtuluş Gününün xalqımızın taleyində oynadığı roldan, ölkəmizin müstəqillik illərində qazandığı uğurlardan danışdılar.

## Masallı

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı günü - 15 iyun çağdaş tariximizə qayıdış, nicat günü kimi daxil olmuşdur. Masallılılar hər il Milli Qurtuluş Gününü böyük ehtiramla, sevinclə qeyd edirlər.

Qurtuluş Günü münasibətilə keçirilən ümumrayon tədbirinin iştirakçıları şəhərin Heydər Əliyev parkına toplaşmışdılar. Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov və icra aparatının işçiləri, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək onun parlaq xatirəsini ehtiramla yad etdilər.

Şəhərin Heydər Əliyev Mərkəzində tədbir davam etdirildi. İcra başçısı Rafil Hüseynov toplantıda çıxış edərək Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti sayəsində ölkəmizin Qafqazın və yaxın Şərqin güclü dövlətinə çevrildiyini, sivil dünyaya inteqrasiya olunduğunu bildirdi.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyilə ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir. Bakı şəhərində ilk Avropa Oyunlarının keçirilməsi müstəqil Azərbaycanın davamlı və sürətli inkişafının, beynəlxalq aləmdə artan nüfuzunun parlaq nəticəsidir. Xalqımıza böyük bayram sevincləri, xoş əhval-ruhiyyə yaşatdığına görə masallılılar möhtərəm Prezidentimizə dərin minnətdarlıqlarını bildirir, idmançılarımıza uğurlar arzulayırlar.

Sonra YAP rayon təşkilatı gənclər birliyinin sədri Məmmədhüseyn Hüseynovun "Milli Qurtuluşumuzun zəfər yürüşü" mövzusunda məruzəsi dinlənildi. O, dahi xilaskarın müdrik siyasəti, qətiyyətli mövqeyi nəticəsində ölkənin müstəqilliyinin, suverenliyinin qorunduğunu, dövlətçiliyimizin möhkəmləndirildiyini, cənab Prezident İlham Əliyev tərəfindən milli qurtuluş yolunun uğurla davam etdirildiyini diqqətə çatdırdı.

Prezident təqaüdçüsü Məmmədhüseyn Həsənov, Ərkivan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Sabiq Cahangirov, həkim Cahan Mustafayeva əbədiyaşar dahinin azərbaycançılıq ideologiyasından, müstəqillik və dövlətçilik naminə gördüyü işlərdən danışdılar.

## Astara

Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyasının Astara rayon təşkilatının inzibati binasında ümumrayon tədbiri keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev tədbiri giriş sözü ilə açaraq ölkəmizin hər yerində Milli Qurtuluş Gününün böyük təntənə ilə qeyd edildiyini bildirmişdir.

1993-cü ilin əvvəllərində ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, naşı siyasətləri nəticəsində qanlar bahasına əldə olunmuş müstəqilliyimizin itirilməsi təhlükəsi yaranmışdı. Hadisələr elə məcraya yönəlmişdi ki, onun qarşısını yalnız xalqın arxalandığı dahi şəxsiyyət, təcrübəli dövlət xadimi, mahir siyasətçi ala bilərdi. Xalq bunu çox yaxşı bilir və xilas yolunu bu böyük insanın respublikaya rəhbərliyə qayıdışında gördü.

Xalqın təkidli xahişlərini nəzərə alan Heydər Əliyev iyunun 15-də siyasi hakimiyyətə gəldi. Ümummilli liderin tarixi qayıdışı ilə ölkənin başı üstünü almış təhlükə aradan qaldırıldı. Xalq faciələrdən qurtuldu, azad nəfəs almağa, xoşbəxt və firavan həyat sürməyə başladı.

Ulu öndərin siyasi məktəbinin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün ölkəmiz gündən-günə çiçəklənir, sürətlə inkişaf edir, bütün sahələrdə dünya dövlətlərinin etibarlı tərəfdaşına çevrilir.

Müstəqil Azərbaycan regionun aparıcı dövləti, dünyada nüfuzlu ölkə kimi tanınır. Son illərdə beynəlxalq tədbirlərin ardıcıl olaraq Azərbaycanda keçirilməsi ölkəmizə olan maraqların güclənməsinə, onun nüfuzunun artmasına əyani sübutdur.

Sevindirici haldır ki, Birinci Avropa Oyunları kimi tarixə düşən böyük idman bayramı doğma Bakıda keçirilir. Bu möhtəşəm tədbir möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyilə müstəqil Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzun, əldə etdiyi uğurların məntiqi nəticəsidir.

Tədbirdə Astara Rayon İcra Hakimiyyəti başçısının müavini Yasəmən Rəsulova, icra aparatının hüquq şöbəsinin hüquqşünası Elnur Rəsulov, Şuvi kənd tam orta məktəbinin direktoru Əbülfət Qüdrətov, mədəniyyət və turizm şöbəsinin məsləhətçisi Vüsal Babayev, Astara şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi Gülnar Məmmədova çıxış etmiş, ümummilli liderin Vətən və xalq qarşısında tarixi xidmətlərindən danışmışlar.

Axşam saatlarında Astara şəhərinin dənizkənarı park-bulvarında bayram konserti təşkil olundu. Tanınmış incəsənət ustalarının çıxışları və atəşfəşanlıq iştirakçılara xoş ovqat, sevincli anlar yaşatdı.

## Lerik

Milli Qurtuluş Günü ilə əlaqədar rayonda silsilə tədbirlər keçirilmişdir. Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov ümumrayon tədbirini giriş sözü ilə açaraq bildirdi ki, 1993-cü ilin may-iyun aylarında ölkəni bürümüş anarxiya, xaos, kəskin ictimai narazılıqlar son həddə çatmışdır.

Tədbirdə Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəlimməmmədovanın məruzəsi dinlənildi. Bildirdi ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsilə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, əslində xalqın heç bir dəstəyi olmadan hakimiyyəti ələ keçirmiş o zamankı iqtidar dövlətin təhlükəsizliyini təmin etmək əvəzinə, yalnız öz hakimiyyətini qorumağa çalışırdı. Bütün sahələrdə xaos, özbaşınalıq hökm sürürdü.

Azərbaycan dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə Heydər Əliyev xalqın səsinə səs verərək ölkə rəhbərliyinə qayıtdı. Müstəqil Azərbaycanı, xalqı, qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etdi. Bu, sözün əsl mənasında, böyük Vətən oğlunun öz xalqı, Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildən başladığı quruculuq missiyasını onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Prezidentin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, ölkənin bütün bölgələri sürətlə inkişaf edir. Bunu ucqar dağ rayonu olan Lerikin timsalında da aydın görmək olar. Son illər rayon sürətlə inkişaf edir, gözəlləşir.

Lerik peşə məktəbinin direktoru Hüseynbala Əliyev, rayon təhsil şöbəsinin metodisti Qafur Xosiyev, Lerik şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Şəhla Məmiyeva tədbirdə çıxış edərək bildirdilər ki, dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi kurs Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmiş, onu əbədi və dönməz etmişdir.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov tədbiri yekunlaşdırmış, əldə olunan sosial-iqtisadi uğurları, sürətli inkişafı Milli Quruluş Günün bəhrələri kimi dəyərləndirmişdir.

## Yardımlı

Yardımlı rayonunda Milli Qurtuluş Günü təntənəli şəkildə qeyd edilib. Rayon icra hakimiyyətinin iclas zalında keçirilən ümumrayon tədbirini icra başçısı Sevindik Hətəmov açaraq 15 iyunun tariximizin şanlı, unudulmaz səhifəsi olduğunu, ümummilli liderin hakimiyyətə qayıdışı sayəsində xalqımızın faciələrdən, müstəqilliyimizin, dövlətçiliyimizin məhvolmadan xilas edildiyini bildirdi.

İcra başçısı ulu öndərin Vətən və xalq qarşısında müstəsna xidmətlərindən ətraflı söhbət açdı. Qeyd etdi ki, tarixi unutmaq olmaz. Hər bir azərbaycanlı Milli Qurtuluşumuzun qədrini bilməli, bu tarixi yaşatmalıdır. Məhz ulu öndərin fədakarlığı, misilsiz xidmətləri sayəsində Azərbaycan dünya xəritəsindən silinməkdən qurtulmuş, dövlətçiliyimiz qorunub möhkəmləndirilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderin siyasi kursunu qətiyyətlə, yüksək işgüzarlıqla davam etdirir. Cənab Prezidentin müdrik siyasəti nəticəsində ölkəmiz regionun lider dövlətinə, beynəlxalq aləmdə söz sahibinə çevrilmişdir.

Tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarının Bakıda keçirilməsi müstəqil Azərbaycanın növbəti uğuru, müstəqillik tarixində möhtəşəm qələbəsidir. Yardımlılılar bundan hədsiz dərəcədə sevinir, qürur duyurlar.

İcra başçısı Sevindik Hətəmov möhtərəm Prezidentimizin rəhbərliyilə Azərbaycanın yeni və daha yüksək qələbələr qazanacağını, üçrəngli bayrağımızın tezliklə işğal altında olan torpaqlarımızda dalğalanacağını əminliklə bildirmiş, tədbir iştirakçılarına bayram arzularını söyləmişdir.

Yardımlı Rayon İcra Hakimiyyəti başçısının müavini Əfsanə Məmmədova, rayon ziyalılar cəmiyyətinin sədri Feyruz Sultanov, şəhər 1 nömrəli tam orta məktəbin tarix müəllimi Nəsimi Qurbanov və başqaları çıxış edərək müstəqillik illərində əldə olunmuş nailiyyətlərdən danışmışlar.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## Gəncə

Azərbaycan Texnologiya Universitetində professor-müəllim heyəti və tələbələrin iştirakı ilə 15 iyun - Milli Qurtuluş Gününə həsr edilmiş geniş elmi-praktiki konfrans keçirilmişdir. Tədbir Dövlət Himninin səsləndirilməsilə başlandı. Universitetin rektor əvəzi Rövşən Əliyev iştirakçıları bu bayram münasibətilə təbrik edərək, 15 iyunun tarixi əhəmiyyətindən ətraflı söhbət açdı. 15 iyun - Milli Qurtuluş Günü... Xalqımızın taleyində dönüş anı... Məhz 22 il bundan öncə, tarixin bu günü xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edilmişdir. Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atılan addımların qurtuluş məfkurəsinə istinad etməsi heç də təsadüfi deyil. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə növbədə Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu. Heydər Əliyevin dühası, qlobal inkişaf meyillərini irəlicədən görmək, öz ölkəsinin dünya birliyində rolunu, yerini və imkanlarını dəqiq müəyyənləşdirmək qabiliyyəti, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başı üstünü almış təhlükələr aradan qaldırıldı.

Universitetin tərbiyə işləri üzrə prorektoru Gülsüm Fətəliyeva, Heydər Əliyev Məktəbinin rəhbəri Hüseyn Budaqov və digər çıxış edənlər birmənalı bildirdilər ki, dahi şəxsiyyət Heydər Əliyevin qətiyyəti, dəyanəti, uzaqgörən siyasəti nəticəsində xalqımız qardaş qırğınından, dövlətimiz məhvolma təhlükəsindən qurtuldu. Bugünün məhz Milli Qurtuluş Günü - bayram günü kimi qeyd edilməsi də heç də təsadüfi deyildir.

Sonra ulu öndərin hakimiyyətə gəlişini əks etdirən məqamlar videoçarxlarda tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Qazax

Qazaxda 15 iyun - Milli Qurtuluş Günü geniş qeyd olunmuşdur. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmiş və abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar. Tədbiri Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov açmış və 15 iyun - Milli Qurtuluş Günü münasibətilə xalqımızı və tədbir iştirakçılarını təbrik etmişdir. Sonra bildirmişdir ki, XX əsrdə Azərbaycan xalqı Heydər Əliyevin şəxsində özünün güclü ümummilli liderini yetişdirmiş və onun ətrafında sıx birləşmişdir. Xüsusilə ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslər milli mənafe naminə bütün gücünü səfərbər edərək xalqa doğru yol göstərən yeni liderə zərurət yaratmışdı.

1993-cü ilin iyununda Azərbaycan xalqı çətin imtahan qarşısında qalmışdı. Ölkə vətəndaş müharibəsi kimi dəhşətli uçuruma doğru gedirdi. Belə bir ağır şəraitdə Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtmasını daha böyük qətiyyətlə tələb etməyə başladı. Xalqımız belə böhranlı və mürəkkəb zamanda Heydər Əliyev təcrübəsindən, uzaqgörənliyindən istifadə olunmasını, onun yenidən siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Belə də oldu. Bu, sözün əsl mənasında "Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib meydana atılan Vətən oğlunun öz xalqı və öz Vətəni qarşısında misilsiz fədəkarlığı idi.

Biz fəxarət hissi keçiririk və qürur duyuruq ki, ulu öndər Heydər Əliyevin yaradıb bizə əmanət qoyub getdiyi Azərbaycan dövləti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən qətiyyətlə qorunub saxlanılır və daha da möhkəmləndirilir. Ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun nəticəsidir ki, dünyada bir çox nüfuzlu təşkilatlar öz tədbirlərinin Azərbaycanda keçirilməsi haqqında qərarlar qəbul edirlər. Azərbaycan özünün sürətli inkişafı sayəsində I Avropa Oyunlarına ev sahibliyi etmək hüququ qazanıb. Bu, Azərbaycanın iqtisadi inkişafının, siyasi sabitliyinin, təhlükəsiz dövlət olmasının, dünyanın aparıcı idman ölkələrindən birinə çevrilməsinin məntiqi nəticəsidir.

İcra hakimiyyətinin başçısı Ayaz Əsgərov xalqımızı belə bir möhtəşəm idman bayramı münasibətilə təbrik etmiş, bütün idmançılarımıza parlaq qələbələr və uğurlar arzulamışdır.

Daha sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov məruzə ilə çıxış etmiş, o dövrdə ölkədə baş verən hadisələrdən, xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsindən, dövlətçiliyimizin məhv olması təhlükəsinin qarşısının alınmasından ətraflı danışmışdır. YAP Qazax rayon təşkilatının Şura üzvü, Qazax Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, YAP Qazax rayon təşkilatının Qadınlar Şurasının sədri Asya Alhüseynova, YAP Qazax rayon təşkilatının Şura üzvü, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin müəllimi Tərlan Bədəlova və AMİ-nin Qazax filialının müəllimi Mübariz Süleymanov çıxış etmişlər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Şirvan

Bu günlərdə 15 iyun - Milli Qurtuluş Günü münasibəti ilə şəhərdə geniş bayram tədbiri keçirildi. İctimaiyyət nümayəndələri, ziyalılar Bayraq meydan-kompleksə toplaşmışdılar. Bayram tədbirini respublikamızın tanınmış müğənnilərindən Elxan Şirinovun, Arzu Əliyevanın, aşıq Vüqar Mahmud oğlunun ifa etdiyi musiqi sədaları daha da rövnəqləndirirdi. Mikrafona Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov dəvət olundu. İcra başçısı dedi:

–1993-cü ilin yay günləri respublikamızın ən ağır dövrü idi. Azərbaycan parçalanmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. Belə bir çətin vaxtda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev xalqı bəlalardan qurtardı. Odur ki, 15 iyun Milli Qurtuluş Günü kimi bizə həmişə əziz və doğma olmuş və bundan sonra da ən sevimli bayramımız olacaqdır.

Bayram tədbiri atəşfəşanlıqla başa çatdı.

**Tofiq HÜSEYN,**
**"Respublika".**